# Diaspor Gənclərinin V Yay düşərgəsində iştirak edən gənclərlə görüş

**Qərbi Azərbaycan İcmasında Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Diaspor Gənclərinin V Yay düşərgəsində iştirak edən gənclərlə görüş keçirilib.**

Qurumdan verilən məlumata görə, İcmanın İctimaiyyətlə Əlaqələr və Qərbi Azərbaycan Televiziyası Şöbəsinin müdiri Ülviyyə Zülfiqar gənclərə Qərbi Azərbaycan həqiqətləri barədə məlumat verərək soydaşlarımızın son 200 il ərzində öz tarixi torpaqlarından mərhələlərlə çıxarıldıqlarını, ötən əsrdə dörd dəfə deportasiya edildiklərini, sonuncu 1987-1991-ci il deportasiyası zamanı 300 minə yaxın azərbaycanlının öz el-obasından məcburi köçkün düşdüyünü bildirib.

Qeyd olunub ki, indiki Ermənistan ərazisində Qərbi azərbaycanlıların maddi və qeyri-maddi-mədəni irsi məhv edilib. Bu kimi haqsızlıqlara qarşı təşkilatlanan Qərbi Azərbaycan İcması sözügedən ədalətsizliklərlə bağlı dünya ictimaiyyətini geniş məlumatlandırmaq istiqamətində intensiv addımlar atıb, ayrı-ayrı subyektlərə məktublar və müraciətlər ünvanlayıb. Bu gün İcmanın məqsədi soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışı istiqamətində fəaliyyət aparmaq və onların hüquqlarını müdafiə etməkdir. Bu məqsədə nail olmaq üçün xaricdə yaşayan soydaşlarımızın, xüsusilə də gənclərin rolu çox böyükdür.

Ülviyyə Zülfiqar gənclərin Qərbi azərbaycanlıların geri qayıdış hüququ barədə xarici auditoriyanın məlumatlandırılmasına böyük töhfə verə biləcəklərini vurğulayıb. İcmanın Gənclərlə İş üzrə məsul şəxsi Anar İrzaquliyev gənclərin sözügedən məqamlarla bağlı daha ətraflı məlumatlandırılması üçün lazım olan resursların təmin ediləcəyini, o cümlədən İcmanın sosial media və onlayn media resurslarının bunun üçün açıq olduğunu bildirib. Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Esmira Xəlilova bu istiqamətdə Komitənin gənclərlə apardığı işi daha da intensivləşdirəcəyini qeyd edib.



Sonda gənclərin sualları cavablandırılıb, xatirə şəkli çəkdirilib.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika .- 2024.- 10 avqust, (№ 169).- S.5.